UOT 94 (479.24)
https://doi.org/10.59849/2710-0820.2024.1.59

**Kəmalə Həsənova**
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu, baş laborant*
*kamalah664@gmail.com*
*Azərbaycan*

# ERKƏN ORTA ƏSRLƏRDƏ AZƏRBAYCANDA DİNİ MÜHİT (III-X ƏSRLƏRDƏ)

***Açar sözlər:*** *Azərbaycan, tanrıçılıq, zərdüştilik, xristianlıq, islam.*

## Giriş

Erkən orta əsrlər dövründə dini mühiti islamaqədərki və islam dövrü olmaqla iki mərhələyə ayırmaq olar. Ümumiyyətlə, Azərbaycan xalqının mədəni-mənəvi həyatında, düşüncəsində tanrıçılıq, zərdüştilik, xristianlıq kimi dini baxışlar olmuş və bugün belə bu inancların təsirləri adət-ənənələrimizdə belə öz təsirini göstərir. Təəssüf ki, tariximizin islamaqədərki dövründə dini mühit daha çox xristianlıqla bağlı araşdırma mövzusu olmuşdur. Xristianlıq məsələsində də əsas diqqət Albaniya tarixinə yönəldilmişdir. İlkin tədqiqatlar olaraq Fəridə Məmmədovanın, Ziya Bünyadovun, müstəqillik illərində isə Sara Kasumovanın bu istiqamətdəki tədqiqatlarını fərqləndirə bilərik. Yeri gəldikcə bu tədqiqatlara müraciət edərək dövrün xristianlıqla bağlı dini mühitinə nəzər salmağa çalışacağıq. Zərdüştilik və tanrıçılıqla bağlı olan araşdırmalar isə tarixi tədqiqatlar baxımından çox məhdud çərçivədə araşdırılmışdır. Doğrudur, tanrıçıqlıla bağlı Firudin Ağasıoğlunun, Faiq Ələkbərlikimi tədqiqatçıların araşdırmaları olsa da bu istiqamətdə görülən daha çox fəlsəfi və filoloji fikirlərə əsaslanır. Eləcə də Azərbaycanda zərdüştiliklə bağlı Elnur Vəliyevin apardığı araşdırma əsasən arxeoloji (maddi-mədəniyyət abidələrinin - toreftika, qrifonlar, qəbir abidələri və memarlıq abidələrinin tədqiqi əsasında), yaxud da Elməddin Əlibəyzadənin apardığı araşdırma əsasən filoloji xarakter daşıyır. Yaxud da Abdulla Fazilinin Atropatena tarixi ilə bağlı araşdırması çərçivəsində Azərbaycanda zərdüştiliklə bağlı araşdırmasında da xüsusi olaraq qeyd edə bilərik. Ümumiyyətlə, erkən orta əsrlərdə dini mühiti daha aydın başa düşmək və izləmək baxımından həm filoloji, həm dini, həm fəlsəfi, həm arxeoloji, həm də tarixi baxışların diqqətə alınmasının faydalı olacağını düşünürəm və apardığımız araşdırma da məhz bu əsaslara söykənir.

### *Azərbaycanda tanrıçılıq*

Azərbaycanda ən qədim dövrlərdən islamaqədər davam edən «bir tanrı» inamlı Tanrıçılıq inancı da olmuşdur. Bu inanc daha çox Azərbaycandakı bir çox türk boyları ilə bağlı idi. Tanrıçı boylar daha çox söz və musiqinin vəhdətindən yoğrulmuş milli törənlərə qatılır, sazın-sözün qüdrətinə inanır, ozan (azər) və qosan (türkmən) adlı el sənətçilərinin söylədiyi oğuznamələri dinləyirdilər [8.s393]. Firudin Ağasıoğlu yazır ki, *"özlərini təbiətin yavrusu sayan türklər, özəlliklə bozqır türkləri hər bir təbii varlığın yiyəsi olduğuna inanır, onlara öz qamları vasitəsilə münasibət bildirir, ancaq bütün varlığın yaradıcısı kimi bir Tanrıya (Tenqri) tapınırdılar. Sumerlərin də dinqir dediyi bu teonim həm Tanrını, həm də onun simvolu olan Göyü (səmanı) bildirirdi"* [8.s.469-470]. Azərbaycan torpaqlarında da qərar tutan xəzərlər gecə-gündüzə, küləyə, torpağa, göyə və digər təbiət qüvvələrinə ibadət edirdilər, Göyün tanrısı isə digər tanrılardan daha böyük hesab edilirdi. İbn Fədlan da Xəzər ölkəsinə gedən yolda bir türkmən obasında eşitdiyi Bir Tanrı sözünü «tək allah» kimi şərh edir [8.s.470]. Ümumiyyətlə, tanrıçılıqdan sonra başqa bir dinə tapınan türk boyları hər bir halda öz Tenqrisini də yaşatmış və seçdikləri yeni dində bir Tanrını, tək Tenqrini, Tenqrixanı görmüşdülər. Ən azından unutmayaq ki, hətta Azərbaycan əhalisi islamı qəbul etdikdən sonra belə tanrı kultunu yaşat-

mış, dua edərkən əlini göyə açmış, Allahla tanrı sözünü eyni mənada işlətmişdilər. Hətta oğuzun ən dəyərli dastanlarından biri olan “Kitabi-Dədə Qorqud” dastanında da bu izlər açıq aydın özünü biruzə verir. «Kitabi-Dədə Qorqud» boyları Azərbaycan türklərinin qədim dini etiqadlarını, eləcə də Tanrıçılığı öyrənmək baxımından çox önəmlidir. Bu boylarda qədim türklərin dini etiqadları, dünyagörüşləri, adət􀀀ənənələri öz dolğun əksini tapmışdır. «Dədə Qorqud» boylarında qədim türk epos təfəkkürünün müəyyən əlamətləri qorunur. Qədim türk eposunun əsas qəhrəmanları da mifik obrazlar idi (Su, Göy, Yer, Ağac, Quş, Boz Qurd, Tanrı xan və b.). Türklər İslamı qəbul etdikdən sonra türk Tanrısını İslam Allahı əvəz edir [10.s.172-174] . Eyni zamanda «Kitab»da türk boyları, oğuzların yaşadığı coğrafiya, «iç» və «dış» oğuzların münasibətləri yanaşı, oğuzların dini etiqad, inam və əxlaq normalarından bəhs olunur. Burada əsas yeri İslamla səsləşən Tanrıçılıq tutur: *“Vurduğunu ulatmayan ulu Tanrı! Basdığını bildirməyən bəlli Tanrı! Apardığını göyə yetirən əziz Tanrı! Qəzəbləndiyini batırıb-boğan acıqlı Tanrı! Birliyinə sığındım, qadir Tanrı!”* [10.s.264]. Deməli, «Kitabi-Dədə Qorqud»da türklərin dünyagörüşünün ən ali forması kimi Göy Tanrıya inam öz əksini tapmışdır ki, onun mahiyyəti də əsasən İslamla üst-üstə düşür [5.s.156].

F.Rəşidəddin də yazır ki, tanrıçılıq dinini Oğuz xan formalaşdırıb və türklər arasında yayıb [7.s.16-18] . Oğuz xan dastanına görə, türklər həmişə tək Tanrıya ya da Göy Tanrıya inanmış, çoxallahlı olmamışlar. Oğuznamədəki *“Oğuz bizi bir Tanrıya inanıb, ona ibadət etməyə dəvət etdi*”[7.s.18]; *“Oğuz dedi: “Əgər sizlər Tanrıya inanıb, onun birliyini qəbul etsəniz, canınız aman tapacaq”* [7.s.19] kimi cümlələr də bunu bir daha təsdiq edir. Azərbaycanın istər cənubu, istərsə də şimalında üstünlük təşkil edən türk tayfalarının dini inancında tanrıçılıq mühüm yer tutsa da, Azərbaycanda erkən orta əsrlərdə mövcud olan digər dini inancların yayılmasını önləyə bilmədi. Lakin əvvəldə də qeyd etdiyimiz kimi türklər xristianlığı, yəhudiliyi qəbul etmiş olsalar belə, həmin dinlərdə belə öz adət-ənənələrini həm qoruyub saxlayır, həm də bu ənənələrdə tanrıçılıq inancını yaşadırdılar.

***Azərbaycanda zərdüştilik***

Atropatenada hələ eramızdan əvvəl II əsrdən etibarən Azərbaycanın mədəni-mənəvi həyatında mühüm rol oynamış zərdüştiliyin yeni ocağı yaranmış, Sasanilər dövründə (III-VII əsrlərdə) onun mövqeyi daha da möhkəmlənmiş və bu vəziyyət ərəb işğalınadək davam etmişdi. Hesab edilir ki, zərdüştiliyin dirçəlişi, intibahı məhz Sasani dövründə baş vermiş, Atropatena bu prosesin mərkəzində olmuşdur. Bu dövrdə müqəddəs «Avesta» mətnləri 21 kitabda cəmləşdirilmişdi. Bu işdə Atropatenada qərarlaşmış baş kahin Aturpat (Adarbad) mühüm rol oynamışdı. «Avesta»nı qələmə almaq məqsədilə xüsusi əlifba yaradılmışdı.

Zərdüştilik dünya vəhy dinlərindən ən qədimidir və o bəşəriyyətə digər etiqadlara nisbətən bilavasitə və ya vasitəli şəkildə daha çox təsir göstərmişdir. Zərdüştilik yalnız dini təlim deyildir. O, fəlsəfi və əxlaqi, ictimai-siyasi, elmi baxışların mükəmməl sistemidir. Zərdüştilik və onlarla bağlı olan dini fəlsəfi sistemlər iudaizmə, erkən xristianlığa da müəyyən təsir göstərmişdir. Bu mükəmməl sistemin antik yunan fəlsəfi-elmi fikrinin nümayəndələrinə təsiri isə daha çox olmuşdur. Zərdüştilik dövlət və ehkam dini kimi Sasanilər imperiyası zamanında tam şəkildə formalaşdı. Zərdüşt (Zaratustra) əslən Cənubi Azərbaycandan idi. Bir çox orta əsr müsəlman müəllifləri də israrla qeyd edirlər ki, onun- Zaratuştranın vətəni Cənubi Azərbaycandır. Bunun səbəbini Azərbaycanın Sasanilər imperiyasının mədəni-mənəvi həyatındakı aparıcı rol oynaması ilə izah etmək lazımdır. Sasanilər imperiyasının dövlət əhəmiyyətli, əsas, müqəddəs ocaqlarından biri (Adurguşnasp məbədi) burada idi və Sasani şahənşahlarının bu ocağı ziyarət etməsi icbari ənənəyə çevrilmişdi. Azərbaycan müqəddəs məbədlərin, «çoxsaylı maqların» (kahinlərin) cəmləşdiyi möhtəşəm ocaq olmuşdur. Orta əsr müəlliflərinin məlumatlarına görə, bu müqəddəs yerlərin çoxusu hələ Zərdüştə qədərki dövrdə də vardı. Zərdüştilik Azərbaycanın ictimai-siyasi, mədəni-mənəvi həyatında ərəblərin gəlişindən 3-4 əsr sonra da müəyyən rol oynamışdır. Azərbaycanda zərdüşt dininin geniş surətdə yayılması və onun ehkamlarında əkinçilik və maldarlığın mədh edilməsi də həmin ərazidə əkinçiliyin və maldarlığın in-

kişaf səviyyəsinə təsir göstərən amillərdən biri olmuşdur. Bu səbəbə görə də təsadüfi deyildir ki, vaxtilə Zərdüştün özü əkinçilər peyğəmbəri adlandırılmışdır. Ruhani silkinin başçısı olan mobedan-e mobedə ən böyük və ali rütbə və məqam verilmişdi. Geniş xalq kütləsinin bilavasitə "Avesta" və Zərdüştün təlimlərindən istifadə etməsi məqsədilə kitabın mətninin Sasani pəhləvəsinə çevirməklə ona şərhlər əlavə edib "zənd" adlandırdılar [1.s.126].

Azərbaycanda, zərdüştliyin ən geniş yayılmış olduğu bu ölkədə dini ayinlər əsasında yaranmış təlim-tərbiyə üsulu mövcud olmuşdur. Çox güman ki, Azərbaycan ərazisində bina edilmiş mühüm atəşgədələrin nəzdində istər dini, istərsə də dövrün tələbinə uyğun digər təhsil növləri kifayət qədər olmuşdur. Bu dövrdə saray, atəşgədə, atəşgah və ailə məktəbləri mövcud olmuşdur. Zərdüşt dinini qəbul edən hər bir gənc 15 yaşından etibarən həddi-büluğa çatır, bu müddətdən etibarən dini ayinləri yerinə yetirməyə borcludur. Zərdüşt dininin əsas müddəası ondan ibarət idi ki, dünyada bir-biri ilə daimi vuruşan iki qüvvə vardır. Bunlardan biri xeyir - Hörmüzd (Ahuraməzda), digəri isə şər - Əhriməndir (Anqara-Manyu). Zərdüştün dini təlimində baş ilahi qüvvə, Hörmüzddür ki, onu od təmsil edir. Zərdüşt dininə inananlar atəşgədələr tikir, orada od yandırır və bu odu qoruyub saxlayırdılar. Onlara görə od müqəddəs bir qüvvədir, o daima yanmalı və təbiətdə mövcud olan napak ünsürlərdən qorunmalıdır. Zərdüşt dininə inananlara görə həyatın əsasını təşkil edən su, od, torpaq və havadır (külək). Onlar bu dörd ünsürü müqəddəs hesab edib, onların daima təmiz qalmasına səy göstərirdilər [1.s.126-129;3.s.159].

Zərdüşt dininin əxlaqi təlimi 3 əsası olan yaxşı düşüncə, gözəl bəyan və xeyirxahlıq üzərində qurulmuşdur. Bu dinin təlimlərində ailə, övlad tərbiyəsinə xüsusi fikir verilir. Bu dinə qail olan hər bir şəxs öz gündəlik həyatında düz danışmalı, yalançılığa yol verməməli, cəmiyyətin fəal üzvü kimi əkinçilik və maldarlıqla məşğul olub, bataqlıqları qurudub, onun məhsuldar torpağa çevrilməsinə səy göstərməlidir. Bundan başqa bu təriqətə inananlar ziyanvericilərə qarşı da daim mübarizə aparmalıdır. Beləliklə, məzdəizm (Zərdüştilik) antik dövrün ideoloji-fəlsəfi, dini və həyati dünyabaxışıdır. Bu ideologiya "Avesta"da öz əksini tapmışdır. "Avesta"nı yalnız bir xalqın dini, dünyəvi və həyati ideologiyası hesab etmək yanlışdır. Məhz "Avesta" böyük bir ərazidə yaşamış müxtəlif tayfa, qəbilə nəhayət, xalqın fəlsəfi, mənəvi mədəniyyət nümunəsidir [1.s.134]. Lakin ərəblərin gəlişi ilə zərdüştilik adət-ənənələri xalq islamının tərkib hissəsi kimi yaşadılsa da, bir din kimi məhdudlaşdırılmış oldu. Çünki yeni torpaqlara yeni dinlə hərbi yürüşlər etmiş ərəblər əsas zərbəni dini-ideoloji ocaqlara, xüsusilə zərdüştiliyə endirmək qərarında idilər. Sasanilər imperiyasının dini mərkəzi, ocağı olmuş Atropatena (Azərbaycan) ərəb ordularının başlıca zərbə obyektinə çevrildi [9.s.75-76]. Erkən islam dövründə Azərbaycanda zərdüşti dini obyektləri məscidlərə çevrilirdi, islamın ehkamları və tələbləri əsasında yenidən qurulurdu. Kitab-əhlindən fərqli olaraq zərdüştilərə daha sərt münasibət göstərilmiş, birmənalı olaraq onlar dinləri dəyişməyə məcbur edilmişdilər. Ərəb işğallarından sonra Zərdüştilər "gəbr" adlandırılaraq təqib edilmişdilər [1.s.89].

### *Azərbaycanda xristianlıq*

Azərbaycanda xristianlıq deyildikdə ilk ağıla gələn sözsüz ki, Azərbaycan Albaniya dövləti olur. Qafqazdakı alban kilsəsi nəinki bu regionun, ümumiyyətlə bütün xristian dünyasında ən qədim kilsələrindəndir. Azərbaycanın şimalında bugün saysız-hesabsız kilsələr qorunub saxlanılmışdır. Bu kilsələrin də əksər hissəsi Qarabağ, Şəki-Zaqatala, Gəncə-Daşkəsən, Qazax-Tovuz, Şərqi Zəngəzur iqtisadi rayonlarının ərazisindədir. Alban kilsələri Azərbaycanın xristianlıq tarixinə şahidlik edir. Fəridə Məmmədova Albaniyada xristianlığın iki əsas dövrünü fərqləndirir. Birinci dövr kimi o IV əsrə qədər davam edən Surofil dövrünü fərqləndirir ki, bu dövr apostol dövrü də adlanır. Apostol dövrü Faddey, Varfolomey, eləcə də Faddeyin şagirdi Yeliseyin adları ilə bağlıdır. Bu dövrdə xristianlığın Albaniyada dövlət dininə çevrilməsinə qədər Yerusəlimdən, Suriyadan Albaniyaya ayaq basan din təbliğatçılarının – missionerlərin, apostolların və onların şagirdlərinin fəaliyyəti nəticəsində xristian icmalarının yaranması ilə xarakterizə olunur [6.s.207]. Bu vaxt incil bütün Yaxın və Orta Şərq ölkələrində

yalnız Suriya (arami) dilində yayılırdı. O, yalnız apostolların və onların şagirdlərinin yox, həm də Suriya missionerlərinin fəaliyyəti ilə bağlı idi [6.s.215]. I-III əsrlərdə (birinci mərhələdə) Albaniyada xristianlığın təntənəsi haqqında söhbət belə gedə bilməz. Xristian dini ölkədə yalnız IV əsrdə vətəndaşlıq hüququ qazandı. Buna əngəl olan Sasanilərin yüksəlişi idi. Xristian dininin Albaniyada yayılmasında alban Araşkilərinin də rolu var idi [6.s.216] . Albaniyada çar Urnayr tərəfindən xristianlığın rəsmi qəbulu ilə (IV əsr) başlayan ikinci dövr isə Yunanfil dövrü adlanır və Maarifçi Qriqorinin adı ilə bağlıdır. Alban kilsəsini qriqoryan kilsəsindən fərqləndirən cəhət öz mənşəyinə görə birbaşa Yerusəlim kilsəsi ilə, sonradan isə Yerusəlim patriarxlığı ilə bağlı olmasıdır [6.s.207]. Mənşəcə araşki olan Urnayr (və onun varisləri) tərəfindən xristianlığın qəbul edilməsi daxili tələbatdan daha çox siyasi məqsəd daşıyırdı. Urnayr monoteist dinin – xristianlığın köməyilə, müxtəlif tayfalardan ibarət ölkəni birləşdirib atəşpərəst Sasanilərə qarşı dayanmağa çalışdı [6.s.217]. IV əsrin əvvəllərində dövlət dini elan olunmuş və şah, əyanlar, feodal zadəganları tərəfindən qəbul edilmiş xristianlıq xalq arasında yayılıb ümumxalq dini səviyyəsinə yüksələ bilmədi, təbiət qüvvələrinə, ruhlara, sitayişə əsaslanan müxtəlif bütpərəst dinlər, eləcədə də Sasanilər tərəfindən qorunan zərdüştiliyin müxtəlif təriqətləri hələ də güclü idi [6.s.218-219].

Xristian dininin Azərbaycanda yayılıb möhkəmlənməsində alban əlifbasının, alban yazısının yaradılıb təkmilləşdirilməsi, məktəblərin açılması, Bibliya və digər ilahiyyat ədəbiyyatının Suriya və yunan dillərindən alban dillərinə tərcümə edilməsinin böyük rolu olmuşdur. Albaniyanın Arşaki şahlarının köməyi ilə xristianlıq yeni feodal cəmiyyətin ideoloji əsasına çevrilir, Albaniyanın ictimai-siyasi və sosial həyatında həlledici rol oynamağa başlayır. Monarx və feodal zadəganlar alban kilsəsi və onun başçıları üçün maddi baza yaratdı, torpaqların xeyli hissəsi və bütpərəst məbədlərinin var dövləti onların əlinə keçdi. Kilsə və ruhanilər bundan başqa şahdan da nəzir şəklində xeyli torpaq alırdılar. Kilsənin xeyrinə "kilsə desyatini" xalqdan yığılırdı ki, bu da kənd təsərrüfatından alınan gəlirin 1/10-nə bərabər idi. Bunlardan əlavə digər natural veriglərin və nəzir-niyazın sayı-hesabı yox idi. Ruhanilər natural rüsumlar hesabına yaşayırdılar, padşah Vaçaqanın (V əsr) "kilsə qaydası qərarlarının" Aquen dini yığıncağı tərəfindən qəbul edilməsi də bunu təsdiq edir. Ziya Bünyadovun M.Kalankatukluya istinadən qeyd etdiyi kimi,

> *"ölkədə vergi verən silk üç qrupa: "lazımınca varı olanlara", "yoxsullara" və "heç bir şeyi olmayan kəndlilərə" bölünmüşdü. Bu bölgü [torpaq] məhsullarının xalq tərəfindən keşişlərə verilməsi qaydası olmalıdır. Kim dövlətlidirsə, 4 vahid buğda, 6 arpa və 16 kuzə şirin [çaxır] verir. Yoxsul adam yarım kömbə çörək və imkanı olduğu qədər çaxır verir; kimin ki nə əkin yeri var, nə də üzümlüyü, ondan heç bir şey alınmamalıdır. Öz ruhunu şad etmək üçün bundan artıq şey verənlər, xeyir iş görmüş olarlar. Evində qoyunu olanlar bir qoyun, üç qoyununun yununu və bir baş pendir verir; atı olanlar bir dayça, qaramalı olanlar isə bir buzov verir. Bundan əlavə, "azad adam (azad mərd), yaxud kənd əhli və ya ruhani olmayan hər bir adam öz ölənlərinə rəhmət oxumaq üçün hər il öz imkanı daxilində nəzir gətirməyi unutmamalıdır. Əgər ölənin atı olmuşsa, kim isə [onun əvəzinə] istədiyi atı kilsəyə verməlidir; əgər onun qaramalı vardısa, istədiyi öküzü verməlidir"[13.s.73-74].*

Ruhanilər öz xidmətlərinə görə xüsusi torpaq payı-xostakla təmin olunurdular. Böyük knyazdan, yəni alban hökmdarından sonra ən böyük torpaq sahibi Alban Kilsəsi idi [13.s.72]. Alban şahları xristian ruhanilərə, alban kilsəsinə böyük qayğı göstərir, onlara imtiyazlar verirdilər. Şahlar ruhaniləri yüksək mənsəbli əyanlara bərabər tutmağa çalışır, bu məqsədlə saray məhkəməsilə yanaşı, iki mərhələdən – keşiş məhkəməsi və yepiskop məhkəməsindən ibarət kilsə məhkəməsi yaratmışdılar. Xristianlığın ilkin mərhələsində (IV-V əsrlərdə) Albaniyada ruhaniliyin iqtisadi və siyasi cəhətdən hələ zəif idi. Kilsə kanonik qayda-qanunlarının şərtləri şahın iştirakı ilə zadəganlar və ruhanilər tərəfindən işlənib hazırlanırdı. Əyanlar və şah öz möhürlərini vurandan sonra bu sənədlər hüquqi qüvvəyə minirdi [6.s.219]. Alban katalikosunun

hakimiyyəti nominal xarakter daşıyırdı. Alban şahları yepiskopları təyin edir, kilsə qurultayı çağırır, qəsrlər tikdirir, bir sözlə, kilsənin və ruhanilərin səlahiyyətinə daxil olan işləri görürdülər. Alban ruhanilərinin bu vəziyyəti xalq arasında kilsənin ideoloji mövqeyinin zəifliyi, eləcə də mərkəzləşdirilmiş dövlətin mövcud olması ilə izah edilir [6.s.220]. VI-VII əsrlərdə isə Mehranilərin hakimiyyəti dövründə alban kilsəsinin iqtisadi və siyasi mövqeyi gücləndi. 488-ci və 705-ci illərdə keçirilmiş alban kilsə qurultaylarının kanonlarını müqayisə etdikdə bunu aydın görmək olur. Əgər 488-ci ilin kanonuna görə alban ruhaniliyi əyanlar – azatlar qarşısında öz hüquqlarını yalnız müdafiə edir və onlarla bərabər olmağa çalışırdısa, 705-ci il kanonunda aydın olur ki, ruhanilər artıq azatlarla mübarizəyə girişir, onların özbaşınalığını məhdudlaşdırır və kilsə məsələlərinə qarışmağa onlara qəti qadağan edirdilər. VII əsrdə alban kilsə qurultayının çağırılması təşəbbüsü kilsəyə rəhbərlik edən və onun qanunverici orqanının başında duran alban katalikosuna aid idi [6.s.220]. Azərbaycanda xristianlığı VII əsrdən etibarən yeni bir din – İslam sıxışdırmağa başlayır. Ümumiyyətlə, Azərbaycanda xristianlığın İslamın gəlişi ilə getdikcə daha da məhdudlaşması həm də əhalinin iqtisadi vəziyyətə görə dini mühiti ilə bağlı qərar verməsindən qaynaqlanırdı. Çünki, orta və yoxsul təbəqə onların iqtisadi vəziyyətini yaxşılaşdırmayan Xristianlığın yayılmasına müqavimət göstərirdi [2.s.29]. İslamın gəlişi ilə də məhz geniş güzəştlərlə çıxış edən İslama üstünlük vermiş oldu.

### *Azərbaycanda islam*

VII əsrdən başlayan ərəb işğalları ilə Azərbaycanda yeni bir dinin – İslamın yayılması da geniş xarakter aldı. İlkin dövrlərdə, yəni Rəşidi xəlifələri dövründə əksəriyyəti köçəri olan ərəblərin özləri hələ yeni olan dini (islamı) lazımınca mənimsəmədiklərinə görə, əvvəllər Azərbaycan əhalisini islamı qəbul etməyə məcbur etmirdilər və yeni dini qəbul etmək istəyənlərə də mane olmurdular. Bu xüsusilə Arrana, yəni keçmiş Albaniya dövlətinə aid idi, çünki onun əhalisi xristian, "Kitab əhli" ("əhl əl-Kitab") idi. Azərbaycanın güneyinə gəldikdə isə, burada islam dini Sasanilərin dövlət dini olan zərdüştiliyi sıxışdırmışdı. Ancaq atəşpərəstlər və məcuslar (çoxallahlılar) təqib olunurdular, çünki onlar "Kitab əhli" deyildilər. Buna görə də Azərbaycanın cənub hissəsində islamın qəbulu artıq Abbasilər dövründə başa çatdı və zərdüştilik demək olar ki, tamamilə sıxışdırıldı. Doğrudur, bu dinin bəzi adətlərini (Novruz bayramı, dəfn adətləri) xalq İslam dinini qəbul etdikdən sonra da yaşatdı.

İslamın Azərbaycanda yayılması ümumən Əməvilərə qədər bu cür xarkterizə edilə bilər:

> *"Xristianlıqdan fərqli olaraq, islam dini fərdi missionerlərdən istifadə etmirdi və yalnız istila yolu ilə yayılırdı; müsəlman torpaqlarının sərhədləri ilə islamın yayılan sərhədləri bir-birinə uyğun gəlirdi. Missionerlik müsəlman dövlətlərinin daxilində olduğu kimi, ondan kənarda da dərviş ordenləri tərəfindən aparılırdı; dərvişlər islamı çöllərdə türklər arasında yayırdılar; artıq X əsrdə biz İslamın bütöv xalqlar tərəfindən onların müsəlman silahı ilə istila edilmədən qəbul edildiyini görürük... həm də "islam dini zorakılıqla yayılmırdı və nə xristianlar, nə də zərdüştilər təqib olunmurdular*" [14.s.45-42].

İslam dininin qəbul edilməsində Əməvilərdən sonrakı Xilafət dövründə kəskin dönüş əmələ gəldi. Əməvilər Xilafətdə vahid hakimiyyət və vahid dil bərqərar edib, Xilafətin təbəələri arasında islam dinini yaymaqla yalnız sonralar onların xələfləri Abbasilərin istifadə etdikləri maddi şəraiti yaratmışdılar [13.s.100-101]. Ümumiyyətlə, Arran, yəni keçmiş Albaniya dövlətinin əhalisi onlar üçün yeni olan dini qəbul etməyə heç də məcbur edilmədilər, əskinə xristian albanların özləri islamı çox müvəffəqiyyətlə qəbul edirdilər. Təsadüfi deyil ki, islam tədqiqatçılarının əksəriyyətinin də qeyd etdiyi kimi ərəblərin itaət altına aldıqları ölkələrin xalqları yeni dini kütləvi şəkildə qəbul edirdilər. Ziya Bünyadov V.Rozenə istinadən yazır ki, *"ərəblər öz sadəliyi və bəsitliyi ilə əzəmətli, yeni bir din gətirmişdilər və dini təqib və didişmələrin təzyiqi altında haldan düşüb əzilən kütlələrin zövqünə bu yeni din xüsusən ona görə uyğun gəlmişdi ki, demək olar, hər yerdə yadellilərin (əlavə edək: öz həmvətənlərinin də) ağır*

*iqtisadi zülmündən kütlələri azad edən xilaskar kimi göstərirdi*"[13.s.101].

Bütövlükdə, ərəblərin öz mədəni səviyyələri aşağı olduğuna görə Azərbaycana islam dini və ərəb dilindən başqa nəsə gətirmədilər. Ərəblər özlərindən əvvəl Azərbaycanda mövcud olan qaydaları və ənənələri öz ehtiyaclarına uyğunlaşdırmağa başladılar, xüsusilə ona görə ki, ərəblərdən əvvəlki dövlət mexanizmi "yaxşı qurulmuşdur" [13.s.102]. VIII əsrin əvvəllərində islam dini Azərbaycanda artıq hakim bir din idi. Azərbaycanda islamı dinini yuxarı silkin nümayəndələri tamamilə danışıqsız qəbul etdilər, çünki bu onlara öz imtiyazlı mövqelərini qorumaq imkanı verirdi. Yeni din tacir və sənətkarlar üçün də sırf daha geniş güzəştlərə və geniş ticarət bazarına çıxmaq baxımından sərfəli idi. Kəndlilər üçün isə islamın qəbulu ilk növbədə çox ağır can vergisindən, yəni cizyədən onlara azad edirdi deyə, daha cəlbedici idi. Əlavə olaraq da, islamın qaydalarına görə "uşaqlar, qadınlar, xroniki xəstələr, eləcə də heç bir vəsaiti olmayan adamlar və heç bir gəliri olmayan zahidlər" verginin bu növündən azad olunduqlarına görə islamı çox rahatlıqla qəbul edirdilər [11.s.61]. Bütün bunlara baxmayaraq Azərbaycanın şimalındakı dağlıq hissələrdə xristianlığa edən az da olsa əhali qalmaqda davam edirdi. Hətta ərəblərin yerli xristianlara qarşı erməni qriqoryan kilsəsindən istifadə etməsi belə Azərbaycanın xristian alban əhalisinin öz varlığını çar Rusiyasının işğalına qədər qoruyub saxlamasına əngəl olmadı. Yalnız 1836-cı ildə Rusiya Sinodunun qərarı ilə müsəqil Alban kilsəsi rəsmi olaraq ləğv edilərək diofizit mərkəzi statusunu itirmiş və erməni qriqoriyan kilsəsinin təsiri altına keçmişdir [12.s.4;25-87].

***Nəticə***

Erkən orta əsr Azərbaycanda dini mühitin tədqiqi belə qənaətə gəlməyə imkan verir ki, tarixin müxtəlif dövrlərində xalqımızın yaşadığı tanrıçılıq, zərdüştilik, xristianlıq kimi dinlər bir din kimi tarixi Azərbaycan hüdudlarında zamanla məhdudlaşsa da, xalqın adət-ənənələrində yaşayaraq, hətta İslam dininin belə xalq islamı kimi anılmasına səbəb olmuşdur. İstənilən halda Azərbaycan xalqı bugün Novruz bayramını sadəcə xalqın adət-ənənəsinin bir hissəsi kimi qeyd etsə də, reallıqda bu bayramın özü belə zərdüştilik ənənələrinə söykənir və hər cəhəti ilə onu tərənnüm edir. Yaxud da bugün əksəriyyəti müsəlman olan Azərbaycan əhalisinin dua edərkən əllərini göyə tutması tanrıçılıq dinindən qaynaqlanmırmı?! Fikrimizcə, erkən orta əsr Azərbaycanda mövcud dini mühitin daha geniş şəkildə tədqiqi istiqamətində aparılan araşdırmalar xalqımızın tarixi keçmişi ilə bağlı bir çox mübahisəli məqamların aydınlaşdırılmasında mühüm rol oynayacaqdır. Məsələn, aparılan tədqiqatlarda zərdüştilərlə, atəşpərəstlərin eyniləşdirilməsi, əslində odpərəst olmayan Azərbaycan xalqının inadla oda sitayiş edən bir xalq kimi təbliğinə çalışılması, yaxud da 705-ci ildə erməni qriqoryan kilsəsinə təslim edilsə də, əslində öz kimliyini 1836-cı ilə qədər qoruyub saxlaya bilən alban kilsəsinin taleyində oğuz-qıpçaq birliyinin rolu və sair bu kimi məsələlərə aydınlıq gətirmək mümkün olacaqdır.

## Ədəbiyyat


1. Abdulla Fazili, Ulusunu tanımayan tanrısını tanımaz. (Atropatena e. ə. IV – e. VII əsri), Bakı: Elm. 1992.
2. Anar Əlizadə, Azərbaycanda Xristianlıq: keçmişdən bu günə. Bakı: Elm və təhsil. 2016.
3. Elməddin Əlibəyzadə, "Avesta" Azərbaycan xalqının mənəvi mədəniyyət tarixidir. Bakı: Yurd NPB. 2005.
4. Elnur Vəliyev, İlk orta əsrlərdə Azərbaycanda zərdüştilik (tarixi-arxeoloji tədqiqat işi): tarix e. n. a. dər. al. üçün təq. ol. dis-nın avtoreferatı: 07.00.06. AMEA, Arxeologiya və Etnoqrafiya İn-tu. Bakı. 2001.
5. Faiq Ələkbərli, Turan sivilizasiyasına giriş: Turan məfkurəsi və Tanrıçılıq. Bakı: Elm və Təhsil. 2021.
6. Fəridə Məmmədova, Azərbaycanın (Albaniyanın) siyasi tarixi və tarixi coğrafiyası: E.ə. III əsr - e. VIII əsr. Bakı: Azərnəşr. 1993.
7. Fəzlullah Rəşidəddin, Oğuznamə. Bakı: Azərbaycan Milli Ensiklopediyası. 2003.
8. Firudin Cəlilov (Ağasıoğlu), Azərbaycan Türklərinin İslamaqədər tarixi, III Bitik: Azərbaycanda qurulan qədim dövlətlər. Bakı: Ağrıdağ. 2014.

9. Xeyirbəy Qasımov, Orta əsrlərdə Azərbaycan mədəniyyəti. Bakı: Aspoliqraf. 2008.
10. Kitabi-Dədə Qorqud: əsil və sadələşdirilmiş mətnlər / tərt. ed. S. Əlizadə; nəşrə hazırl. və red. T. Hacıyev; [buraxıl. məsul Ə. Güləliyev; tərtibatçı-rəssam N. Əliyeva]. Bakı: Öndər, 2004.
11. Nailə Vəlixanlı, Ərəb xilafəti və Azərbaycan. Bakı: Azərnəşr. 1993.
12. Ramin Əlizadə, Elnur Nəciyev, "Qarabağın Alban-Qıpçaq tarixinə dair", Akademik Tarih ve Düşünce Dergisi, c. 7, s. 4, 2020, s. 2578-2593.
13. Ziya Bünyadov, Azərbaycan VII-IX əsrlərdə, Bakı: Şərq-Qərb. 2007.
14. Василий Бартольд, Место Прикаспийских областей в истории мусульманского мира. Б.и, Баку: 1924.
15. Сара Касумова, Христианство в Азербайджане в раннем средневековье. Баку: Master Print & Publishing. 2005.

## Резюме

**Камала Гасанова**

**Религиозная среда в Азербайджане в раннее средневековье (III-X вв.)**

Статья посвящена изучению религиозной среды в Азербайджане раннего средневековья. Хронологические рамки исследования охватывают III-X вв. В ходе исследования о различных религиях, такие как тенгриáнство, зороастризм, христианство и ислам в Азербайджане, сообщаются отдельно и в обзорной форме. С помощью исторических исследований, проводимых по каждой из этих религий, изучается религиозная среда, существовавшая в Азербайджане, как часть истории наших отдельных государств. Особое внимание уделяется факторам, которые приводят к принятию каждой религии, роли этнических, экономических, социальных и политических условий в принятии этих религий. В результате исследования было выявлено, что ранней религиозной средой в Азербайджане было тенгриáнство. Даже если на более позднем этапе тенгриáнство был заменен зороастризмом и христианством, он сохранил свои черты в традициях народа, даже в его подходе к религии. Такой подход привел к признанию каждой религии как национальной религией. Тем более, ислам, который принял азербайджанский народ после христианства, известен как народный ислам. Потому что опыт, полученный в доисламских религиозных воззрениях, наш народ сохранил в своих обычаях и мировоззрении даже после принятия ислама. Этот момент учитывался в ходе написания статьи, и проводились исследования с учетом имеющихся ресурсов и цель исследования.

***Ключевые слова:*** *Азербайджан, тенгриáнство, зороастризм, христианство, ислам.*

## Summary

**Kamala Hasanova**

**Religious environment in Azerbaijan in the early middle ages (III-X centuries)**

The article is devoted to the study of the religious environment in Azerbaijan in the early Middle Ages. The chronological framework of the study covers III-X centuries. During the study, various religions such as Tengrianism, Zoroastrianism, Christianity and Islam in Azerbaijan are reported separately and in an overview form. With the help of historical research conducted on each of these religions, the religious environment that existed in Azerbaijan as part of the history of our individual states is being studied. Particular attention is paid to the factors that lead to the adoption of

each religion, the role of ethnic, economic, social and political conditions in the adoption of these religions. As a result of the study, it was revealed that the early religious environment in Azerbaijan was Tengrianism. Even if at a later stage Tengrianism was replaced by Zoroastrianism and Christianity, it retained its features in the traditions of the people, even in their approach to religion. This approach led to the recognition of each religion as a national religion. Moreover, the Islam that the Azerbaijani people adopted after Christianity is known as folk Islam. Because the experience gained in pre-Islamic religious beliefs, our people retained in their customs and worldview even after the adoption of Islam. This point was taken into account during the writing of the article, and studies were carried out taking into consideration the available resources and the purpose of the study.

***Keywords:*** *Azerbaijan, Tengrianism, Zoroastrianism, Christianity, Islam.*